## Səyahətə gedərkən necə sığortalanmalı?

Gözlənilməz təhlükələr zamanı zərərin minimuma endirilməsində sığorta şirkətləri ilə bağlanan müqavilələrin böyük rolu vardır. Məsələn, hansısa qəza nəticəsində yararsız hala düşən avtomobil öncədən sığortalanmış olarsa, belə hallarda avtomobilin bərpa olunması xərci sahibinin deyil, sığorta şirkətlərinin üzərinə düşür. Qısaca desək, sığorta, şəxslərin müxtəlif xarakterli risklərini başqa bir şəxsə, yəni, sığorta şirkətinə ötürmə formasıdır. Sığorta şirkəti sığorta müqaviləsi ilə öz üzərinə müqavilədə nəzərdə tutulmuş sığorta hadisəsi baş verdikdə sığorta ödənişini həyata keçirmək öhdəliyini götürür.

Bir neçə il öncə, ölkədə sığorta deyildikdə daha çox avto nəqliyyat vasitələrinin sığortası başa düşülürdüsə, hazırda cəmiyyətimizdə sığortanın digər növlərinə də marağın artdığını görmək olur. Elə sığorta şirkətlərinin sığorta yığımları üzrə açıqladığı məlumatlarda da bunu görmək mümkündür. Bu gün ölkədə fərdi qəza və xəstəlik sığortası, tibbi sığorta, mülki məsuliyyət sığortası, icbari sığorta üzrə kifayət qədər sığorta ödənişləri həyata keçirilib. Son zamanlar səyahət sığortası da insanların maraq dairəsinə daxil olmaqdadır.

Sığorta şirkətləri Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən sığorta fəaliyyətinə verilmiş lisenziya əsasında fəaliyyət göstərirlər. Ölkədə hazırda 28 sığorta və 1 təkrar sığorta şirkəti var. Xidmətdən qəzetimizə verilən məlumata görə, bu ilin yanvar-fevral ayları ərzində sığorta şirkətləri tərəfindən 58 milyon 915 min 733 manat məbləğində sığorta haqları yığılıb, 9 milyon 546 min 653 manat həcmində isə sığorta ödənişləri edilib. Səfər sığortası üzrə yığımlar isə 150 min 411 manat təşkil edib və bu məbləğdən 6 min 466 manat sığorta ödənişləri edilib.

Bəs səyahət sığortası nələri qarşılayır və bu sığorta növündən necə yararlanmaq olar?

Qeyd edək ki, səyahət sığorta şəhadətnaməsi ümumi tibbi sığorta şəhadətnaməsi hesab edilməməlidir. Təminatlar sığortalının xarici ölkədə olduğu müddətdə baş verə biləcək qəfil gözlənilməz xəstəlik və ya qəza hallarını nəzərdə tutur. Səyahət sığortasının qiyməti səfər edilən ölkədən, səfərin müddətindən və məqsədindən, sığorta ödənişinin maksimal həddindən asılı olaraq dəyişir.

Səyahət sığortasından birdəfəlik və il ərzində çoxsaylı səyahətlər zamanı istifadə etməklə yararlanmaq olar. Birdəfəlik səyahət üzrə sığorta, sığortalının ərazi limitlərində təsvir edilmiş səyahətə çıxmaq üçün öz vətənində yaşadığı yeri və ya iş yerini tərk etməsi ilə başlanır. Sığortanın bitməsi isə sadalanan hallardan birinin ilk başlanması ilə mümkün olur. Bunlar, sığorta şəhadətnaməsində göstərilən sığorta müddətinin sona yetməsi, səyahətin sonunda sığortalının öz vətəninə qayıtması, sığortalının planlaşdırılmış tarixdən öncə vətəninə qayıtması zamanı baş verir.

İl ərzində çoxsaylı səyahətlər üzrə sığortaya gəlincə isə qeyd edək ki, səyahətlər üzrə sığortanın başlanması və bitməsi birdəfəlik səyahət sığortasında olduğu kimidir. Lakin bu səyahət sığortası üzrə sığortanın bitməsinə səbəb olan digər amillər də var. Məsələn, əgər sığortalının səfərdə olma müddəti sığorta şəhadətnaməsində göstərilən müddətdən artıq olarsa həmin dövr təminata daxil edilmir.

Səyahət sığortası çərçivəsində tibbi məlumat və konsultasiya, tibbi müalicə təminatı, ölümdən sonra repatriasiya xərcləri, lazımi dərmanların çatdırılması, ziyarətçinin qalma xərcləri, xəstəxanadan evə yazıldıqdan sonra mehmanxanada qalma xərcləri, müalicədən sonra daimi yaşayış yerinə qayıdışın təşkili, sığortalının vəfatı halında ailə üzvlərinin daimi yaşayış yerinə qaytarılması və s. xidmətlər təklif edilir.

Onu da bildirək ki, sığorta şirkətləri bədbəxt hadisə zamanı yaranmış halları da təminata daxil edir. Bu halların bədbəxt hadisədən sonra 180 gün ərzində meydana çıxması nəzərdə tutulur. Bunlar, həmin şəxsin ölüm, əmək qabiliyyətinin tam və daimi itirilməsi, bir və ya daha çox ətrafın itirilməsi, görmə qabiliyyətinin itirilməsi hallarıdır.

Aytən NƏBİYEVA